**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/9** **14 dekabr 2023-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının yaradılması və tərkibinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasında auditor xidmətinin dövlət tənzimlənməsinin təşkilinə, auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərinin müdafiəsinə, auditin aktual məsələlərinin və problemlərinin həllinə, Palatanın Aparatında çalışan və Palatanın üzvləri olan qadınların problemlərinin həllində onlara kömək göstərilməsi məqsədilə Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədov tərəfindən hazırlanmış Azərbaycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının Əsasnaməsinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azəraycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatası Qadınlar Şurasının tərkibi aşağıda göstərilən üzvlərdən ibarət olmaqla təsdiq edilsin:

| **Qadınlar Şurasının üzvləri** | | |
|---|---|---|
| 1. | Abdinova Elnurə Tofiq qızı | “Caspian Consulting and Partners” MMC-nin direktor-auditoru |
| 2. | Abdullayeva Nərgiz Rəhim qızı | Auditorlar Palatasının insan resursları üzrə meneceri |
| 3. | Bayramova Lamiyə Qəşəm qızı | “L.B. Audit xidməti” MMC-nin direktor-auditoru |
| 4. | Cəfərova Sevda Teymur qızı | "ECONOMIC-CHA” MMC-nin direktor-auditoru |
| 5. | Həsənova Adilə Teymur qızı | Auditorlar Palatasının Maliyyə və texniki təminat idarəsinin əmək haqqı üzrə mühasibi |
| 6. | Məhərrəmzadə Nərmin Eysan qızı | “Kaspian Audit Kompani” MMC-nin direktoru |
| 7. | Məmmədova Yeganə Qubad qızı | “Audit Reporting" MMC-nin direktor-auditoru |
| 8. | Mirzəyevə Siddiqə Nəsir qızı | Auditorlar Palatasının Maliyyə və texniki təminat idarəsinin Sənədlərin toplanması, qorunması və arxiv işi bölməsinin müdiri |
| 9. | Muradxanova Nəsibə Tərlan qızı | “KPMG Audit Azərbaycan” MMC-nin auditoru |
| 10. | Qəfərova Rəna Ədbülfəz qızı | sərbəst Auditor |
| 11. | Süleymanova Ədilə İldırım qızı | "Global Assurance" MMC-nin direktor-auditoru |

3. Auditorlar Palatası Qadınlar Şurasına tapşırılsın ki:

3.1. təsdiq edilmiş heyətdən Şuranın sədrini və sədr müavinini seçsinlər;

3.2. bir ay müddətində Şuranın 2024-cü il üzrə iş planının təsdiq edilməsini təmin etsinlər;

3.3. Şuranın Əsasnaməsindən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

5. Bu qərarın icrasına nəzarət Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova həvalə edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**